ədalət.- 2020.- 18 avqust.- S.6



Allahverdi Eminov

# Poetik duyğuların dominantı: Vəli Xramçaylı

**(əvvəli 13 avqust sayımızda)**

Amma qatar gedir, daşıdığı ömrün yükü isə təkcə uşaqlıq deyil ki:

*Vaqonun birində məhəbbətimdir,*
*Özü öz yükünü daşıya bilmir.*
*"Hicran" vağzalında dayanan qatar,*
*Bir gözəl gözünün yaşını silmir.*

Şair necə də yuxarıda vurğuladığım poetik müəmmanı tutmuşdur. Qatar-birləşməkdir, qatar ayrılıqdır - hicrandır; burada məhəbbətin analoqu olan bakirəliyə xələl gətirmək istəmir. Vəli Xramçaylıya, axı, məhəbbətin pik nöqtəsi olan sevgi sevincdən daha çox qəmə sirdaşdır, sonda müdrikliklidir. Sevənlər pislik barədə düşünməzlər, ürəkdə buna yer də yoxdur. Dahi şair və alim Ömər Xəyyam deyirdi ki, "kiçik pislik etməyə görə böyük xeyirxahlıqdan qalmaq böyük pisliyə bərabərdir". Ona görədir ki, sevincimlə qəmim bir yerə sığışa bilmir. Onun üçün ayrı-ayrı hər biri bir ürəkdən qidalanır, şair ürəyisə pislikdən, fəsaddan uzaqdır, axtarıb tapdığı fəzilətdir, bunlar sonsuzluqdur, ömrün qatarına belə sığışmır, Dünyanı gəzib-dolanır, bircə ömrün Qatarına laqeyd qalmır, yenə gəlib sonsuzluqda dayanır.

*Ömrümdən beləcə keçir bu qatar,*
*Keçdikcə sinəmdən izi silinmir.*
*Sonuncu vaqonda ömrümün yolu -*
*Hələ ünvanımın sonu bilinmir.*

Bəllidir ki, poetik təxəyyülün hissləri (şərtidir yozum) sonsuzdur, deməli, yalnız maddi aləmlə yox, onun idrak substansiyası da sonsuzdur - fikrilə o mənada razılaşmaq olar ki, şairin ilhamı ilə şərtlənsin (istedad hər şey deyil), əgər bu hiss öləziyibsə, tükənibsə şeir yazılmır, şairi heç bir emosiya özünə dartmır (bəli, çevikliklə və cürətlə), passiv ovqat hakim kəsilir. Şairlər bu "amansız" qərarı fəhməl duyurlar. Özünə, nə yaxşı yazıbsa ona hörmət əlaməti olaraq ya yazmır, ya da ara-bir dəftər - qələmə üz tutur. Burada qınaq axtarmaq əbəsdir. Vəli Xramçaylı bir sıra şeirlərində ("Bu yol yaman uzaqdır", "Bu şeirim", özündən gileylənir, çünki yaradıcılığında bu xofu yaşamışsa da nikbinliyilə ilhamından küsməmişdir, çətin anlarını, bir misra üçün darıxdığını gizlətməmişdir. Oxucu düşünə Bilər ki, şair bir-iki şeir qoşmaqda nə çətinlik çəkir. Belə deyil: birincisi, həmin nəzərdə tutulan şeir(lər) Vəli Xramçaylı üçün problem yaratmaz, ancaq yenə şərt qoyuram, ümumi poeziyasının səviyyəsindən aşağı olmayacaqdır. Ona görə günahımdır ki, "ilham köksününk üstə oynamalıdır" - iddiaya bax! Bir bulaqdır qurumamışdır (əksinə işarə vurmaqda təvazökarlır edir). Bəs səbəb? İlham bəslənirsə körpə kimi qorxuya nə hacət? Səbəbini romantik poetik "faktla" xatırladır:

*Durna köçüm yenə hara baş alıb,*
*Nə müddətdi bu səmada görünmür.*
*Xeyli vaxtdı sinəm elə boşalıb,*
*Bəyaz-bəyaz duyğulara bölünmür.*

*...Hay versəm də harayıma gələn yox,*
*Bu dərd məni öldürməsə yaxşıdı.*
*Kökün üstə quruyuram bilən yox -*
*İndən sonra bildirməsə yaxşıdı.*

*Bu ürək də ağrımağa vaxt tapıb,*
*Dindirən tək uşaq kimi kövrəlir.*
*Əllərimdə saçlarımın sığalı -*
*Yaş ötdükcə yavaş-yavaş seyrəlir.*

Bu giley poeziyaya məxsu ənənədir, çünki nəsrdir, şeirdir ki, qafiyə, ritm, obraz dalısınca haray salır.

Bu giley onun üçündür, şairin poetik şüuru təxəyyülün qüvvəsini zəmanətə götürür, üz-üzə qoyur, sosial-mənəvi münasibətlərə reaksiya verməlidir. Bu giley onun üçündür, şair lirik Mənin hisslərinin və intellektuallığın ahəngi arasındakı tarazlığını pozmasın.

Vəli Xramçaylı elə isə "Bu şeirini" nə üçün qələmə almışdır - "sualsız", ona görədir özünü "sınağa" çəkir, həm də daxili bir ilhamın "vergisinə" gülür: Allah-Təala bu ruhi dəyəri Mənə pıçılayırsa nə qəm, şeir sirvermməz maddiruhi paydır, ay oxucum, baxmayaraq:

*Bu şeirin əlindən elə doymuşam,*
*Yazıb qaralayıb, pozan deyiləm.*
*Daha ürəyimi dincə qoymuşam,*
*Daha birini də yazan deyiləm.*

*Bilmirəm hayandan tapıb qəlbimi,*
*Peşəmdə ilhamı oxşamaq olub.*
*Talayıb qəlbimi, çapıb qəlbimi -*
*Qazancım yuxusuz axşamım olub.*

Bu, mənəviyyatla maddiyyatın - yaranmışın çarpazlaşmasıdır, qovuşmasıdır, hansı ki, labüddür. Təkcə bunun çəkilib-gəlməməsi xofudurmu?

*Arxalı nadanlar önümü kəsib,*
*İllərlə içinə yağılıb ürək.*
*Beləcə ömrümü, günümü kəsib,*
*Bir nadan əlindən dağılıb ürək.*

*Üzümə çırpılıb meşin qapılar,*
*O qədər içimdə boğulub şeirim.*
*Nə vaxtsa qəlbimi duyan tapılar,*
*Mən istəməsəm də, doğulub şeirim.*

*Sinəmi göynədən sözlərim olub,*
*Deyə bilməmişəm, yığılı qalıb.*
*Bir dilsiz kədərlə gözlərim dolub,*
*Nəğməm bayatılı, ağılı qalıb.*

O var ki, Allah-Təala Yer üzünə göndərdiyi şairlərin xilası yollarını qılıncla, hədə ilə yox, məhz ilhamı və istedadının ittifaqı ilə diqtə edir, hər yaradıcı insanda olmayan eksiztensiya-təhtəlşüurla qarşıya çıxarır, bu "alt qat"a malik şairlər, o cümlədən, Xramçaylı Vəlidə o poetik güc vartorpağa səpələnsə sarı yarpaqlar yaşıllaşar, solmuş çiçəklər cana gələr, boynu bükülmüş bönövşələr qarın altından baş qaldırar.

Poetik yaradıcılıq çoxcəhətlidir, şairin psixoloji təkamülü ilə səciyyələnir, vücudun bütün sahələrinə təsirini göstərir. Oxucum məni anlasın və o qənaətə gəlməsin ki, çox sadəlövhəm, hər şeirə vurulmuram çox, bilirəm ki, Vəli Xramçaylı böyük istedad sahibi olsa da, hər saat, hər gün şeir yazmır (özündən asılı olsa nə dərdi) - gərək hansı "Günün birində" özünə qayıda və özündən qaqa, bioloji-psixoloji qəzada bax! Epiqol qulluq etməyə, soyuq sözlərin buz misralarla birləşməsinə üz verməyə. Necə günün birində yazdı və şərt qoydu.

*Təzədən özümə qayıda bilsəm,*
*Sözü xalı kimi toxuyacağam.*
*Bu sirli dünyanı oyada bilsəm,*
*Qəribə bir nəğmə oxuyacağam.*
*Donub qalacaqdı hamı yerində -*
*Nə vaxtsa bir gün də, günün birində...*




Bu dəfə sualı özüm verməli oldum: Vəli Xramçaylı, "sirli" Dünyanı oyatdınmı? Hərçənd, "Dünya", "Bu dünyanın", "Daha bu dünyadan çıxıb gedirəm", "Kimə söyləyəsən bu dərdi dünya?!", "Özü boyda bu dünya cavabsız sualdı" şeirlərində min bir suala cavab tapmısan. Maraqlı odur, "Dünya" şeiri Dünyanın "tərcümeyi-halı"dır fikrimcə, dərinə getsən xasiyyətidir, mistik davranışıdır: fəsadlar və təzadlarla insan taleyini qarşı-qarşıya qoyur, birinin nəsibi kasıblıqda, digərinin süd göləndə üzməkdir, biri at belində, başqası elindən didərgin düşməkdir; dünyanın, görünür, bu xisləti ki, ağlaya-ağlaya işığa doğuluruq, dərd də boğur, insanı.

*Kasıbları ümid üzdü,*
*Süd gölündə namərd üzdü.*
*İgidləri diri gözlü,*
*Saldın közə, oda, dünya.*

*Naşı xumar-xumar yatıb,*
*Baş girləyib, başlar qatıb,*
*Əyilə-əyilə qatıb*
*Şan-şöhrətə, oda, dünya.*

*Ağlar qoyduğun sənəmin,*
*Dərdi dəldi bu sənəmi,*
*Mən yediyim duzdu qəmi,*
*Gəlibdir dada, düya.*

Dünyadan gileylənməyən çətin ki, kimsə olsun, şairlərsə daha bu məsələdə hövsələsiz və nadinc uşaq kimidir. Özləri pak və təmiz olduqları üçün gileylənirlər, tamamilə haqlıdılar. Vəli Xramçaylının ürəyi o qədər çılğın, şeirə dönən, dəymədüşərdir, desəm ki, poeziyanı dəlicəsinə sevir, heç bir mübaliğəyə yol vermirəm. Poetik yaradıcılığın da sirri bu ovqatdadır. Maraqlı odur, Dünya belə yanaşmalara tab gətirir, "uf"da demir. Dünya isə öz sirrinə bürünüb qalır. Vəli Xramçaylı . Dünyaya adi gözlə baxmır, şairlərə xas tələblərlə yanaşır, fəzilət umur, xeyirxahlıq gözləyir, əvəzində hətta bədbinlikdən qaçmır, axı, dediyim tək - uşaq kimidir, qarğışından da çəkinmir.

*Hər kəlmə addımbaşı əcəl bizi gözləyir,*
*Dağılmalı dünyadı, dağılmır ki, dağılmır.*
*Qapımızı kəsdirib, ölüm bizi gözləyir,*
*Boğulmalı dünyadı, boğulmur ki, boğulmur.*

*Adam ölmək istəmir, anaların gözündə,*
*Ağlamağa neyləsin, bir gilə yaş qalmayıb.*
*Bu gördüyün dünyanın göz işləyən düzündə,*
*Sapanda qoyulası bir dənə daş qalmayıb, -*

Ən sərt şair ittihamı! Dünya özünü tarana və talana qoyanda, sərvətlərini ləyaqətsiz adamlara paylayanda şair bəs nə etməli, susmalıdırmı? Vəli Xramçaylının özü bu dünyadan əlimyanqılıdır, Nəsiblilər ailəsinin Sibirdə nə işi varmış ki.

*Mən sürgündə doğuldum, yerim bəlkə sürgündü,*
*Hər gecəmin əlindən könlümü fikir aldı.*
*Belə ömür-gün olmaz, by nə ömür, nə gündü,*
*Özü boyda bu dünya bir cavabsız sualdı.*

Şərq təfəkkürünün cəsarətli cavabı: bədii yaradıcılıqda əxlaqi sərvətin sosial-mənəvi mövqeyi, əslinə qalsa nəzəri idrakın çıxardığı nəticəsi. Şeirdə Dünya ideal obrazlıqdan çıxır, gerçəkliyə sığınır - "cavabsız söz sualdır"sa. Müəllifin poetik təxəyyülü bütün qüvvəsilə onu zamanla üzüə qoyur, münasibətlərə aydınlıq gətirir. Amma yenə şair qəlbidir, özüylə, sözüylə, gözüylə bacarmadı, yazdı:

*Bu dünyanın dərdi, qəmi*
*Görən harda gecələdi.*
*Ağrıları arı kimi*
*Ürəyimdə beçələdi.*

Şair Vəli Xramçaylı poeziyasında Mənin - zaman paraleli sadə, həzin, sakit notlarla müşayiət olunmur, baxmayaraq leyşmotivdir yaradıcılığının - həyatın-cəmiyyətin ziqzaqları, əksiklikləri, saişləri də poetik ifadəsini tapır, ilk növbədə o, Özü üçün yazmaq bir yana, Xalqı üçün qələmini işlədir, həqiqətə həssaslıqla yanaşır. Gözəlliyə, sevgiyə biganə qalmır. V.Hüqonun sözləri yadıma düşdü: "Gözəl və həqiqi olan şey hər yerdə qəşəng və həqiqi olaraq qalır". Bəli, şairin sevgisində qəribəlik yoxdur, amma sevgi-məhəbbət şeirləri əcaib və qəribə hissiyyatla yazılmışdır, şübhəli çalaların gümüşü rəngi saçır, duyğuların qeyri-adiliyi ürəyə yatır, öncəsi xatirələrə aparır. Bu da sevginin bir "amansız" töhfəsidir. Bəlkə də Dərviş Vəlinin qızlara dikilən baxışlarının uşağıdır, gözəllik önündə sarsılmayan varsa... O adamı elə görmək istərdim!

*İlahi, bu qızlar tər çiçəkdilər,*
*Hissimi, duyğumu hara çəkdilər.*
*Zülfünə dolayıb dara çəkdilər,*
*Çəkdilər, çəkdilər, ay Dərviş Vəli.*

*Yamanca düşübdü işin tərsinə,*
*Neçə yol öldürdü səni tər sinə.*
*Gah da əzrayıl tək sənin köksünə,*
*Çökdülər, çökdülər, ay Dərviş Bəli.*

*Əlindən aldılar yerlə-göyünü,*
*Gör kimlər pisikir, kimlər öyünür,*
*Eşqin yollarında bu can oyunu,*
*Sökdülər, sökdülər, ay Dərviş Vəli.*

Dərviş Vəli deyərdim ki, məhəbbət-sevgi şeirlərinin dairəsindən bu "ayama" ilə çox hərlənmir, ictimai-əxlaqi motivlərə daha çox üstünlük verir, pıçıldamaq ürəyindən keçir ki, Dərvişlər də çılğındılar, ürəkdən sevəndilər, eşqə sığınandılar.

Vəli Xramçaylı şeirində Məhəbbət anlamı obrazlaşır, oxucunu kövrəldir. Mən dəfələrlə vurğulamışam yazılarımda: Məhəbbət-sevgi şeirlərini qələmə almaq şairlər üçün zor işdir, ona görə ki, sevməyən insan heyatda yoxdur, bu cəfa şairlərin payına daha çox düşür, onlar gözəlliyə biganəlikdən qalırlar, ilham mənbəyidir. Məsələnin dolambac tərəfi ondadır sevgi pəriləri yaxınlaşır, az sonra uzaqlaşır, yaxşı adətdir, şair-aşiqə həsrət yarası vururlar ki, ömrü boyu gözləri yolda qalsın ki, obrazlarını poeziyaya gətirsinlər, Həsrət və vüsal arasında qalırlar.

"Qayıtmazsan bir daha", "Qayıtmayacaq", "Sən həsrətin atasısan", "Getdi", "Bilirəm bizimki gətirməyibdir" və s. şeirlərin adı proqnozlaşdırır şairin nələr çəkəcəyini. Şeirlərdə, o cümlədən, Vəli Xramçaylıda insaf varmı "üzdən" yaza, oxucunu kövrəltməyə, göz yaşına bais olmaya. Belə olmaz, şair, oxucu yazıq deyil - niyə xatirələrə aparırsan.

*Həzin könlüm tel-tel olub tellənər,*
*Gözüm yaşı sel-sel olub sellənər.*
*Damcı-damcı sinəm üstə göllənər,*
*Sən geriyə qayıtmazsan bir daha.*

*Son payızın... Son yarpağı yellənər,*
*Bu sevdanın gözü yaman siillənər,*
*Ürəyimdə bir nəğmə var, dillənər,*
*Sən geriyə qayıtmazsan bir daha.*

Şair, sevgi qayıdarsa olur "cütlərin" sıçan-pişik oyunu.

Sevgi azadlıqdır, itirsən bir daha qayıtmayacaq.

Bu məntiqi şair həssaslıqla duymuş, təzadla süslənən bir qısa unikal şeirlə oxucusuna üz tutmuşdur:

*Sən həsrətin anasısan,*
*Mən adanın həsrətiyəm.*
*Məhəbbətin həsrətiyəm,*
*Sən dənizin dalğasısan,*
*Mən dalğanın həsrətiyəm,*
*Sən dalğanın həsrətisən.*
*Mən ləpənin həsrətiyəm,*
*Mən dənizin sahiliyəm,*
*Sən sahilin həsrətisən.*

Mən Vəli Xramçaylının məhəbbət-sevgi şeirlərini əhatəliyilə təhlil etməyi qərara almışdım, bu yaşımda rəva görmüşdüm, o da bir həqiqətdir ki, yaşın payızında sevmək bir məzədir, yaxşı əyləncədir. Məhəbbət isə. Qəribləkdə yaşayan yazıçımız Banin necə də coşğunluqla demişdir: "Məhəbbət qızmış filin gecə vaxtı uşaq beşiyi başında çəkdiyi nərə kimi dəhşətli və əzəmətlidir".

Ona görə də bu müqəddəs hiss aşiqdən yan ötəndə yalnız xatırlaya bilərsən, ürəyin-qəlbin varsa - soyuq vücuddursa xatırlamağa dəyməz. Məhəbbət odlu, heç vaxt cərrah bıçağına gəlməyən qəlpədir.

Bütün vücudun, canın boyu hərəkət edər, yerini dəyişər, son məkanı ürək olar.

*Bir ülvi məhəbbət çəkər qəlbimi,*
*Gəlləm görüşünə bir axşam çağı.*
*Qalsam həsrətində... Son payız kimi,*
*Başlayar ömrümün pərişan çağı.*

*Heç vaxt itirmərəm son ümidimi,*
*Sən hissi, duyğusu çiçək-çəkəsən.*
*Gülüm, oxunmamış bir nəğmə kimi,*
*Mənim ürəyimdə səslənəcəksən.*

İstedadlı şair Vəli Xramçaylı poeziyasına baş vurdum, dərininə gedəmmədim, riskə gəlmədim, təsəllim o oldu, səhər-səhər yazıma başlayım, çün səhər çağı fikirlər işıqlı və cavan olur, daha irəlini düşünürsən, nəsə söz deyirsən. Xüsusən, Şərq poetik təfəkkürü ilə düşünən və yazan şairlər Qərbin rasional düşüncəsinə biganə qalmır, yeri gələndə sintezə asi qalmır. V.Xramçaylının yetərli ilhamı və fantaziyası Qərbin "pasını" qəbul etmir, çün öz ilahi payı kifayətləndiricidir, qələmə aldığı elə şeirlər var - şedevr hesab etməyə dəyər. Vəli Xramçaylı poeziyası nə xalis məntiqi mühakimə, nə də fəlsəfi motivlərlə yüklətməmişdir - "layihələr" hazırlasın. O, şeirə qəlb və ilham pıçıltısı gözündə baxmışdır, şeirə tərəf getməmişdir, şeir ona sarı gəlmişdir!

**Onun poeziyası olumun və ölümün girovundça heç bir zaman vurnuxmamışdır, öz fərdi üslubunu yaratmışdır. Şairin şeir aləmi başdan-başa ruhdur, diri candır. Mən Vəli Xramçaylı poeziyasına belə bir cəsarətimlə yanaşmışam və israrımda qalıram.**

**2018**